**“Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 43.2-ci maddəsinə əsasən **qərara alıram:**

1. “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 185 – 188, 253-1.1, 325.1, 326, 379, 394-1, 413 (audiovizual əsərlərə, fonoqramlara, kompüter proqramlarına, məlumat toplularına, kitab nüsxələrinə münasibətdə), 428.7, 451 (audiovizual əsərlərə, fonoqramlara, kompüter proqramlarına, məlumat toplularına, kitab nüsxələrinə münasibətdə), 459-1, 517-1, 552, 592-1, 602.3, 602-1.1 (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən məlumatların lisenziya verilmiş fəaliyyət növü üzrə müvafiq nəzarət orqanına verilməməsinə münasibətdə) və 602-1.4-cü (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən tədbirlərin görülməməsinə münasibətdə) maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslər barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Bu Fərmanla təsdiq edilən Siyahının 1 – 27, 29 – 62 və 64 – 74-cü hissələrində nəzərdə tutulmuş mərkəzi və yerli icra hakimiyyəti orqanları həmin hissələrdəki vəzifələrə uyğun olaraq rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərinin siyahılarını (müvafiq struktur bölmələrinin adları göstərilməklə) iki ay müddətində təsdiq edib öz internet səhifələrində yerləşdirsinlər.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 may 2017-ci il
1361

Azərbaycan Respublikası Prezidentinin
2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə
təsdiq edilmişdir

**Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin**

**S İ Y A H I S I**

Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol aşağıda göstərilən vəzifəli şəxslər tərəfindən tərtib edilir:

1. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (bundan sonra - Məcəllə) 158.1, 158.2, 159 – 161, 165, 180, 181.0.2, 206 – 208, *227, 232-1, 290.3 (səlahiyyətlərinə aid edilmiş maddələr üzrə), 351- 1,* 368, 443.1, ~~456,~~ 525, 590.2 və 592-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından – daxili işlər naziri, onun müavinləri, Nazirliyin Aparatının baş idarə (idarə) rəisləri, onların müavinləri, Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, onun müavinləri, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin idarə rəisləri, onların müavinləri, şəhər, rayon polis idarələrinin (şöbələrinin) və ərazi polis bölmələrinin rəisləri, onların müavinləri, nəqliyyatda polis idarələrinin, şöbələrinin, xətt bölmələrinin, məntəqələrinin rəisləri, onların müavinləri, baş təhqiqatçılar, təhqiqatçılar, baş əməliyyat müvəkkilləri, əməliyyat müvəkkilləri, polis sahə rəisləri, polis sahə inspektorları, yetkinlik yaşına çatmayanlarla iş üzrə inspektorlar.[1]

2. Məcəllənin 158.3*, 183-cü və 477-2.2-ci* maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi adından – əmək və əhalinin sosial müdafiəsi naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Nazirliyin *tabeliyində* Dövlət Sosial Müdafiə Fondunun *İdarə Heyətinin sədri*, onun müavinləri, *departament müdiri, onun müavini, şöbə müdiri, baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis, filial və nümayəndəliklərinin rəhbərləri, onların müavinləri,* Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri, onun müavini, Aparatın rəhbəri, şöbə müdiri, onun müavini, sektor müdiri, baş

məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi.[2]

*3. Məcəllənin 162.1-ci, 162.2-ci maddələrində, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki tibb müəssisələri istisna olmaqla, digər tibb müəssisələrinə münasibətdə 162.3-cü və 562.1-ci maddələrində, 163-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi adından – səhiyyə naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri, onun müavini.*[3]

*3-1. Məcəllənin 162.3-cü və 562.1-ci maddələrində (Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki tibb müəssisələrinə münasibətdə) nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi adından – İdarə Heyətinin sədri, İdarə Heyəti sədrinin müavinləri, İdarə Heyətinin digər üzvləri, departament, idarə, xidmət, filial və nümayəndəliklərinin rəhbərləri, şöbə müdirləri, koordinatorlar, baş məsləhətçilər.*[4]

4. Məcəllənin 164, 168, 171, 173 və 178-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası, dairə və məntəqə seçki komissiyaları adından – Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası, dairə və məntəqə seçki komissiyaları, Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyası.

5. Məcəllənin 166, 167, 169, 170, 172, 174 – 177 və 179-cu maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası və dairə seçki komissiyası adından – Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası, dairə seçki komissiyası, Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyası.

6. Məcəllənin 181.0.1 və 182-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Təhsil Nazirliyi adından – təhsil naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, Bakı şəhəri üzrə Təhsil İdarəsinin rəhbəri, onun müavini, regional təhsil idarələrinin rəhbərləri, onların müavinləri, Naxçıvan Muxtar Respublikasının təhsil naziri, onun müavinləri.

7. Məcəllənin 181.0.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

7.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi adından – Komitənin sədri, onun müavinləri, Aparatın rəhbəri, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, onun müavini;

7.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından – bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.

8. Məcəllənin 181.0.4-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

8.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından – iqtisadiyyat naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin rəisi, onun müavinləri, şöbə müdiri, onun müavinləri, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, tabeliyində olan regional bölmələrin rəhbərləri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri, onun müavini, Aparatın rəhbəri, şöbə müdiri, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

8.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Maliyyə Nazirliyi adından – maliyyə naziri, onun müavinləri, maliyyə nazirinin müşavirləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Nazirliyin Dövlət Maliyyə Nəzarəti Xidmətinin rəisi, onun müavinləri, şöbə müdiri, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Nazirliyin Dövlət Maliyyə Nəzarəti Xidmətinin regional maliyyə müfəttişliklərinin rəisləri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Naxçıvan Muxtar Respublikasının maliyyə naziri, onun müavini, Aparatın rəhbəri, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi.

9. Məcəllənin 184.1.1, 184.1.3, 184.1.4*, 516-1.1, 516-1.3 (qəbir yerlərinin rezervasiyası tələblərinin pozulmasına münasibətdə)* və 562.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından – ədliyyə naziri, onun müavinləri, Nazirliyin Aparatının Qeydiyyat və notariat baş idarəsinin rəisi, onun müavini, həmin baş idarənin idarə və şöbə rəisləri, Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, onun müavini, Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi Aparatının Qeydiyyat və notariat şöbəsinin rəisi.[5]

10. Məcəllənin 184.1.2 və 462-ci (siyasi partiyalara münasibətdə) maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası adından – Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası, Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyası.

11. Məcəllənin 184.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

11.1. səlahiyyətlərinə aid edilmiş inzibati xətalar üzrə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından – bu Siyahının 9-cu hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

11.2. səlahiyyətlərinə aid edilmiş inzibati xətalar üzrə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası adından – Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası, Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyası.

*11-1. Məcəllənin 185-188-ci və 412-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi adından — Agentliyin İdarə Heyətinin sədri, İdarə Heyətinin üzvləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi.*[6]

12. Məcəllənin 190 və 251.3-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol yerli icra hakimiyyəti orqanı adından – yerli icra hakimiyyəti orqanının başçısı, onun müavinləri, şöbə müdiri, onun müavini,

sektor müdiri, başçının inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndələri.

13. Məcəllənin 196, *198.2, 198.3,* 204, *205-1.2* və 441-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi adından – əmək və əhalinin sosial müdafiəsi naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Nazirliyin yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi, onun müavinləri, şöbə müdiri, onun müavini, sektor müdiri, yerli bölmələrin rəhbərləri, onların müavinləri, baş əmək müfəttişləri və əmək müfəttişləri, Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri, onun müavini, Aparatın rəhbəri, şöbə müdiri, sektor müdiri, baş məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi. [7]

14. Məcəllənin 197.1 və 197.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sosial xidmət göstərən:

14.1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi adından – *əmək və əhalinin sosial müdafiəsi naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri, onun müavinləri, departament müdiri, onun müavini, şöbə müdiri, baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis, filial və nümayəndəliklərinin rəhbərləri, onların müavinləri, Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri, onun müavini, Aparatın rəhbəri, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi*; [8]

14.2. Azərbaycan Respublikasının Təhsil Nazirliyi adından – bu Siyahının 6-cı hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

14.3. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi adından – bu Siyahının 3-cü hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

14.4. yerli icra hakimiyyəti orqanları adından – bu Siyahının 12-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.

15. Məcəllənin *221.1, 221.4 ~~, 221.8~~ və 221.9 - 221.11-ci* maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi adından – səhiyyə naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, Analitik Ekspertiza Mərkəzinin direktoru, onun müavinləri, Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri, onun müavini. [9]

16. Məcəllənin 221.2, 221.3 və 221.5-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

16.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi adından – bu Siyahının 15-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

16.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından – bu Siyahının 8.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.

17. Məcəllənin 221.6-cı maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının *İqtisadiyyat Nazirliyi adından – iqtisadiyyat naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini,* şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, *böyük məsləhətçi,* aparıcı məsləhətçi, məsləhətçi. [10]

18. Məcəllənin 221.7-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

18.1. dərman vasitələrinin dövlət qeydiyyatına münasibətdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi adından – səhiyyə naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini;

18.2. dərman vasitələrinin qiymətlərinin tənzimlənməsinə münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından – iqtisadiyyat naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini.

*18-1. Məcəllənin 221.8-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından – Agentliyin sədri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, regional bölmənin rəhbəri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi.* [11]

19. Məcəllənin 229, *253-1.1.1 (yaşıllıqların uçota alınmamasına münasibətdə), 253-1.1.2 (yaşıllıqların uçotu məlumatlarının təhrif edilməsinə münasibətdə), 253-1.1.3,* 262, 264.0.3 və 264.0.5-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi adından – ekologiya və təbii sərvətlər naziri, onun müavinləri, Aparatın rəhbəri, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, *Nazirliyin yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin rəisi*, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, ~~Bakı şəhəri Ekologiya və Təbii Sərvətlər Departamentinin direktoru, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi,~~ regional və rayon (şəhər) ekologiya və təbii sərvətlər orqanının rəhbəri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Naxçıvan Muxtar Respublikasında müvafiq sahəyə cavabdeh dövlət orqanının rəhbəri, onun müavinləri. [12]

20. Məcəllənin 262.2.3-cü, 262.3-cü və 263-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol "Azərsu" Açıq Səhmdar Cəmiyyəti adından – Cəmiyyətin sədri, onun müavinləri, hüquq departamentinin rəhbəri.

21. Məcəllənin 264.0.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi adından – fövqəladə hallar naziri, onun müavinləri, Nazirliyin Aparatının idarə rəisi, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, Nazirliyin Su Ehtiyatları Dövlət Agentliyinin rəisi, onun müavinləri, Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri, onun müavini.

22. Məcəllənin 267-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi* adından – *nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, Nazirliyin yanında*

*Dövlət Dəniz Agentliyinin direktoru, onun müavinləri, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi.*[13]

*22-1. Məcəllənin 275.4-cü və 275.5-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:*

*22-1.1. polietilen torbaların, birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qarışdırıcı çubuq, çəngəl, qaşıq, bıçaq, boşqab və stəkanların idxalına münasibətdə:*

*22-1.1.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi adından – bu Siyahının 46.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*22-1.1.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi adından – bu Siyahının 19-cu hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;*

*22-1.2. polietilen torbaların, birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qarışdırıcı çubuq, çəngəl, qaşıq, bıçaq, boşqab və stəkanların istehsalına münasibətdə:*

*22-1.2.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından – bu Siyahının 8.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*22-1.2.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi adından – bu Siyahının 19-cu hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;*

*22-1.3. polietilen torbaların, birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qarışdırıcı çubuq, çəngəl, qaşıq, bıçaq, boşqab və stəkanların istehlakçıya satılmasına və ya verilməsinə münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından – bu Siyahının 8.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.*[14]

23. Məcəllənin *286 və 459-1-ci maddələrində* nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi adından – kənd təsərrüfatı naziri, onun müavini, Aparatın rəhbəri, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Nazirliyin yanında *Aqrar Xidmətlər Agentliyinin sədri*, onun müavini, sektor müdiri, ~~yerli bölmələrinin rəhbərləri, onların müavinləri,~~ Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri, onun müavini. [15]

24. Məcəllənin 290.3-cü (səlahiyyətlərinə aid edilmiş maddələr üzrə) maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi adından – kənd təsərrüfatı naziri, onun müavini, Aparatın rəhbəri, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Nazirliyin yanında *Aqrar Xidmətlər Agentliyinin sədri*, onun müavini, sektor müdiri, ~~yerli bölmələrin rəhbərləri, onların müavinləri,~~ Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri, onun müavini, Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidmətinin rəisi, onun müavini.[16]

*24-1. Məcəllənin 295.6-cı və 295.7-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti adından - Xidmətin rəisi, onun birinci müavini, Sərhəd Nəzarətinin rəisi, Xidmətin Aparatının müvafiq idarəsinin rəisi, onun müavini, həmin idarənin müstəntiqləri və təhqiqatçıları, Xidmətin Sərhəd nəzarətinin şöbə, məntəqə, bölmə, növbə rəisləri, təhqiqat bölməsinin rəisi və təhqiqatçıları.*[17]

25. Məcəllənin 327.8, 332.4 – 332.7, 333.2 – 333.5, 334.2 – 334.5, 335.5, 335.6, 337.5, 337.6, 338.7, 342.8, 342.9, 343.2, 343.3, 343.5 – 343.7, 349, 351, 353.5, 511 və 529.3-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından – daxili işlər naziri, onun müavinləri, Nazirliyin Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, onun müavinləri, Baş Dövlət Yol Polisi İdarəsinin Mərkəzi Məlumat Xidmətinin rəisi, Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri və onun müavinləri, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin rəisi, ərazi polis orqanlarının dövlət yol polisi idarələrinin, şöbələrinin rəisləri, onların müavinləri, ərazi polis orqanlarının dövlət yol polisi bölmələrinin rəisləri, ərazi polis orqanlarının dövlət yol polisi qruplarının rəhbərləri, dövlət yol polisinin yol hərəkətinə nəzarət fəaliyyətinə cəlb edilmiş Baş Dövlət Yol Polisi İdarəsinin, dövlət yol polisi idarələrinin şöbə rəisləri və onların müavinləri, bölmə rəisləri, xüsusilə mühüm tapşırıqlar üzrə baş inspektorları və inspektorları, baş dövlət avtomobil müfəttişləri və dövlət avtomobil müfəttişləri, böyük mühəndisləri və mühəndisləri, ərazi polis orqanlarının dövlət yol polisi şöbələrinin, bölmələrinin, qruplarının baş dövlət avtomobil müfəttişləri və dövlət avtomobil müfəttişləri, inzibati təcrübə üzrə baş inspektorları və inspektorları, böyük mühəndisləri və mühəndisləri, axtarış üzrə baş inspektorları və inspektorları, yol nəqliyyat hadisəsi üzrə baş inspektorları və inspektorları, təbliğat inspektorları, alay komandirləri və onların müavinləri, qərargah rəisləri, bölük komandirləri və onların müavinləri, tağım komandirləri, yol patrul xidməti baş inspektorları və inspektorları.

26. Məcəllənin ~~*325.1, 326,*~~ *363-2*, 369, 370, *370-1, 370-2, 375, 388-1.1.2, 388-1.2* və 459.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi adından – nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri, onun müavini, Aparatın rəhbəri, şöbə müdiri.[18]

*26-1. Məcəllənin 363-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:* [19]

*26-1.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi adından - bu Siyahının 26-cı hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;*

*26-1.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti adından - bu Siyahının 28-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.*

*26-2. Məcəllənin 388-1.1.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:*

*26-2.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi adından - bu Siyahının 26-cı hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;*

*26-2.2. informasiya-telekommunikasiya şəbəkəsinin istifadəçilərinə münasibətdə inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından - daxili işlər naziri, onun müavinləri, Nazirliyin Aparatının baş idarə (idarə) rəisləri, onların müavinləri, Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, onun müavinləri, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin idarə rəisləri, onların müavinləri, şəhər, rayon polis idarələrinin*

*(şöbələrinin) rəisləri, onların müavinləri.*[20]

*26-3. Məcəllənin 325.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi adından – Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri, onun müavinləri, Aparat rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Nazirlik yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi, onun müavinləri, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, yerli bölmələrin rəhbərləri, onların müavinləri, Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin rəisi, onun müavinləri, şöbə müdiri, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi.*

*26-4. Məcəllənin 326-cı maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:*

*26-4.1. Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində törədilən inzibati xətalar istisna olmaqla, digər inzibati xətalara münasibətdə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi adından – Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri, onun müavinləri, Aparat rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Nazirlik yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi, onun müavinləri, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, yerli bölmələrin rəhbərləri, onların müavinləri, Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin rəisi, onun müavinləri, şöbə müdiri, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;*

*26-4.2. Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində törədilmiş inzibati xətalar haqqında işlərə münasibətdə Bakı Nəqliyyat Agentliyi adından – İdarə Heyətinin sədri, onun müavinləri, Aparat rəhbəri, şöbə müdiri, onun müavinləri, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;*

*26-4.3. Sumqayıt şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində törədilmiş inzibati xətalar haqqında işlərə münasibətdə Sumqayıt Şəhər İcra Hakimiyyəti adından – Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı, onun müavinləri, şöbə müdiri, onun müavini, sektor müdiri;*

*26-4.4. Gəncə şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində törədilmiş inzibati xətalar haqqında işlərə münasibətdə Gəncə Şəhər İcra Hakimiyyəti adından – Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı, onun müavinləri, şöbə müdiri, onun müavini, sektor müdiri.*[21]

27. Məcəllənin 371 – 374, 382 və 554-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili adından – İnsan hüquqları üzrə müvəkkil, onun Aparatının rəhbəri, Aparat rəhbərinin müavini, Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkili, onun Aparatının rəhbəri, Aparat rəhbərinin müavini.

28. Məcəllənin *371-1, 377, 378 və 602-3-cü* maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti adından – Xidmətin rəisi, onun müavinləri, Xidmətin müvafiq strukturlarının rəhbərləri (rəisləri), Naxçıvan Muxtar Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, onun müavini. [22]

*28-1. Məcəllənin 379-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:* [23]

*28-1.1. fərdi məlumatların informasiya sistemlərinə münasibətdə — bu Siyahının 26-cı hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;*

*28-1.2. digər informasiya sistemlərinə münasibətdə — bu Siyahının 28-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.*

29. Məcəllənin 381-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

29.1. teleradio yayımlarına münasibətdə Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası adından – Şuranın sədri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının sədri, şöbə müdiri, sektor müdiri;

29.2. digər kütləvi informasiya vasitələrinə münasibətdə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili adından - bu Siyahının 27-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.

30. Məcəllənin 383 və 387-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası adından – bu Siyahının 29.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.

31. Məcəllənin 388-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

31.1. teleradio yayımlarına münasibətdə Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası adından – bu Siyahının 29.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

31.2. digər kütləvi informasiya vasitələrinə münasibətdə:

31.2.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili adından – bu Siyahının 27-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

31.2.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Mətbuat Şurası adından – Şuranın sədri, onun müavini, Naxçıvan Mətbuat Şurasının sədri.

*31-1. Məcəllənin 394-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi adından — Komitənin sədri, onun müavinləri, Aparatın rəhbəri, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının 1.6-cı və 1.13-cü bəndləri ilə müəyyən edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhatə etdiyi şəhər və rayonların inzibati ərazilərində aşkar edilmiş inzibati xətalar haqqında işlər üzrə həmçinin Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsinin rəisi, onun müavinləri, şöbə müdiri, onun müavinləri, sektor müdiri, baş məsləhətçi, böyük*

*məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Bakı şəhərinin ərazisində aşkar edilmiş inzibati xətalar haqqında işlər üzrə isə həmçinin Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsinin rəisi, onun müavinləri, şöbə müdiri, onun müavinləri, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi.*[24]

*31-2. Məcəllənin 394.0.5-ci (açıq məkanda reklam qurğularının tikintisi zamanı tikinti norma və qaydalarının pozulmasına münasibətdə), 394.0.6-cı (açıq məkanda reklam qurğularının istismara verilməsi qaydalarının pozulmasına münasibətdə), 394.0.7-ci (reklam qurğularının tikintisi işləri ilə bağlı Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazisində ~~isə~~ "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin, Bakı şəhərində yerləşən Dənizkənarı Milli Parkın ərazisində isə Dənizkənarı Bulvar İdarəsinin göstərişlərinə və qərarlarına əməl edilməməsinə münasibətdə), ~~395.2-ci (açıq məkanda reklam qurğularına münasibətdə),~~ 395.1-1-ci və 428.7-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:*[25]

*31-2.1. Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi adından – Agentliyin direktoru, onun müavini, Aparatın rəhbəri, Aparatda şöbə müdiri, onun müavini, sektor müdiri, baş mütəxəssis, böyük mütəxəssis (böyük müfəttiş), Bakı Şəhəri Reklam İdarəsinin və regional reklam idarəsinin rəisi, onun müavini, idarədə şöbə müdiri, onun müavini, sektor müdiri, baş mütəxəssis (baş müfəttiş), böyük mütəxəssis (böyük müfəttiş);*

*31-2.2. bu inzibati xətalar "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazisində törədildikdə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi adından – İdarənin İdarə Heyətinin sədri və digər üzvləri, Aparatın rəhbəri;*

*31-2.3. bu inzibati xətalar Bakı şəhərində yerləşən Dənizkənarı Milli Parkın ərazisində törədildikdə Dənizkənarı Bulvar İdarəsi adından - İdarənin İdarə Heyətinin sədri və digər üzvləri, Aparatının rəhbəri.*[26]

*31-3. Məcəllənin 395.1-ci (həmin əməlin Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamına verilmiş torpaq sahəsində bu qurumun sərəncamında olduğu müddətdə törədilməsi hallarına münasibətdə) və 395.2-ci (həmin əməlin Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamına verilmiş torpaq sahəsində bu qurumun sərəncamında olduğu müddətdə törədilməsi hallarına münasibətdə) maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi adından – Agentliyin İdarə Heyətinin sədri, onun müavini, Aparatın rəhbəri, Aparatda şöbə müdiri, onun müavini, sektor müdiri.*[27]

*31-4. Məcəllənin 393-1.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:* [28]

*31-4.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından – bu Siyahının 8.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*31-4.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından – bu Siyahının 65-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.*

*31-5. Məcəllənin 388-2.0.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:*

*31-5.1. inzibati xətanı aşkar etmiş Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi adından – bu Siyahının 7.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*31-5.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi adından – Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, Nazirliyin yanında Elektron Təhlükəsizlik Xidmətinin rəisi, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar naziri, onun müavini, Aparatın rəhbəri, şöbə müdiri;*

*31-5.3. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından – bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;*

*31-5.4. inzibati xətanı aşkar etmiş yerli icra hakimiyyəti orqanları adından – bu Siyahının 12-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.*

*31-6. Məcəllənin 388-2.0.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:*

*31-6.1. teleradio yayımı vasitəsilə yayımlanan informasiya məhsuluna münasibətdə Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası adından – bu Siyahının 29.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*31-6.2. kino və video xidmətlər vasitəsilə yayımlanan informasiya məhsuluna, həmçinin mədəni-kütləvi tədbirin keçirilməsi barədə afişalara və digər elanlara, habelə belə tədbiri ziyarət etmək hüququ verən biletlərə, dəvətnamələrə və digər sənədlərə münasibətdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi adından – Mədəniyyət naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri, onun müavini, Aparatın rəhbəri, şöbə müdiri;*

*31-6.3. internet informasiya ehtiyatları vasitəsilə yayımlanan kino, televiziya və videofilmlərə (o cümlədən animasiya filmlərinə), kompüter oyunlarına və digər elektron oyunlara münasibətdə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi adından – bu Siyahının 31-5.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*31-6.4. mətbu nəşrlərə münasibətdə:*

*31-6.4.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi adından – bu Siyahının 7.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*31-6.4.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Mətbuat Şurası adından – bu Siyahının 31.2.2-ci yarımbəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*31-6.5. digər informasiya məhsullarına münasibətdə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi adından – bu Siyahının 7.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.*

*31-7. Məcəllənin 388-2.0.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:*

*31-7.1. televiziya yayımına münasibətdə Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası adından – bu Siyahının 29.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*31-7.2. kino və video xidmətlərinə münasibətdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi adından – bu*

*Siyahının 31-6.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*31-7.3. internet informasiya ehtiyatlarında yayıma münasibətdə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi adından – bu Siyahının 31-5.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.*

*31-8. Məcəllənin 388-2.0.4-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası adından – bu Siyahının 29.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.*

*31-9. Məcəllənin 388-2.0.5-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:*

*31-9.1. teleradio yayımı vasitəsilə yayımlanan informasiya məhsuluna münasibətdə Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası adından – bu Siyahının 29.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*31-9.2. mədəni-kütləvi tədbirin keçirilməsi barədə afişalara və digər elanlara, həmçinin belə tədbiri ziyarət etmək hüququ verən biletlərə, dəvətnamələrə və digər sənədlərə münasibətdə inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi adından – bu Siyahının 31-6.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*31-9.3. internet informasiya ehtiyatları vasitəsilə yayılan informasiya məhsulları və sellülar (mobil) rabitə şəbəkəsinə münasibətdə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi adından – bu Siyahının 31-5.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*31-9.4. mətbu nəşrlərə münasibətdə:*

*31-9.4.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi adından – bu Siyahının 7.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*31-9.4.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Mətbuat Şurası adından – bu Siyahının 31.2.2-ci yarımbəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*31-9.5. digər informasiya məhsullarına münasibətdə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi adından – bu Siyahının 7.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.*

*31-10. Məcəllənin 388-2.0.6-cı maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:*

*31-10.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi adından – bu Siyahının 7.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*31-10.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Mətbuat Şurası adından – bu Siyahının 31.2.2-ci yarımbəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*31-10.3. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından – bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.*

*31-11. Məcəllənin 388-2.0.7-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:*

*31-11.1. təhsil müəssisələrinə münasibətdə inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Təhsil Nazirliyi adından – bu Siyahının 6-cı hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;*

*31-11.2. tibb müəssisələrinə münasibətdə inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi adından – bu Siyahının 3-cü hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;*

*31-11.3. mədəniyyət müəssisələrinə münasibətdə inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi adından – bu Siyahının 31-6.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*31-11.4. bədən tərbiyəsi və idman müəssisələrinə münasibətdə inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi adından – bu Siyahının 34.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*31-11.5. inzibati xətanı aşkar etmiş Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi adından – bu Siyahının 7.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*31-11.6. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından – bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;*

*31-11.7. inzibati xətanı aşkar etmiş yerli icra hakimiyyəti orqanları adından – bu Siyahının 12-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.*[29]

32. Məcəllənin 398-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

32.1. dövlət qeydiyyatına (vergi uçotuna) alınmadan və ya sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün lisenziya tələb olunduğu hallarda belə lisenziya almadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa münasibətdə Azərbaycan Respublikasının Vergilər Nazirliyi adından – vergilər naziri, onun müavinləri, vergilər nazirinin müşavirləri, Aparatın rəhbəri, onun müavinləri, Aparatın departamentlərinin (idarə, şöbə və bölmələrinin) baş direktorları (direktorları), onların müavinləri, onların tərkibində idarənin (şöbənin, bölmənin) direktorları (rəhbərləri), onların müavinləri, baş dövlət vergi müfəttişləri (baş hüquqşünas, baş təhqiqatçı, baş əməliyyat müvəkkilləri), böyük dövlət vergi müfəttişləri (böyük hüquqşünas, böyük təhqiqatçı, böyük əməliyyat müvəkkilləri), dövlət vergi müfəttişləri (hüquqşünas, təhqiqatçı, əməliyyat müvəkkilləri), Vergilər Nazirliyi yanında departamentlərin baş direktorları, onların müavinləri, ərazi vergilər departamentlərinin (idarələrinin) baş direktorları (direktorları), onların müavinləri, rayon vergilər şöbələrinin direktorları, onların müavinləri, onların tərkibində idarənin (şöbənin, bölmənin) direktorları (rəhbərləri), onların müavinləri, baş dövlət vergi müfəttişləri (baş hüquqşünas, baş təhqiqatçı, baş əməliyyat müvəkkili, baş müvəkkil, xüsusilə mühüm işlər üzrə böyük müstəntiq), böyük dövlət vergi müfəttişləri (böyük hüquqşünas, böyük təhqiqatçı, böyük əməliyyat müvəkkili, böyük müvəkkil, xüsusilə mühüm işlər üzrə müstəntiq), dövlət vergi müfəttişləri (hüquqşünas, təhqiqatçı, müstəntiq, əməliyyat müvəkkili, müvəkkillər), Naxçıvan Muxtar Respublikasının vergilər naziri, onun müavini, Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi Aparatının rəhbəri, Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi Aparatının şöbə (bölmə) rəisləri, onların müavinləri, baş dövlət vergi müfəttişləri (baş hüquqşünaslar), böyük dövlət vergi müfəttişləri (böyük hüquqşünaslar), dövlət vergi müfəttişləri (hüquqşünaslar), böyük müstəntiqlər, müstəntiqlər, baş təhqiqatçılar, böyük təhqiqatçılar, təhqiqatçılar, Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin Naxçıvan Şəhər Vergilər İdarəsinin rəisi, onun müavini, İdarənin tərkibində şöbə (bölmə) rəisləri, onların müavinləri, baş dövlət vergi müfəttişləri (baş hüquqşünaslar), böyük dövlət vergi müfəttişləri (böyük hüquqşünaslar), dövlət vergi müfəttişləri (hüquqşünaslar), Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin rayon vergilər şöbələrinin rəisləri, onların müavinləri, onların tərkibində bölmə rəisləri, onların müavinləri, baş dövlət vergi müfəttişləri (baş hüquqşünaslar), böyük dövlət vergi müfəttişləri (böyük hüquqşünaslar), dövlət vergi müfəttişləri (hüquqşünaslar);

32.2. lisenziyada nəzərdə tutulmuş şərtlərin pozulması ilə və ya xüsusi icazə olmadan mülki dövriyyəsi

məhdudlaşdırılmış əşyalardan istifadə etməklə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə münasibətdə müvafiq sahə üzrə nəzarəti həyata keçirən dövlət orqanının adından – orqanın rəhbəri, onun müavini, Aparatın rəhbəri, onun müavini, idarə (departament, şöbə) rəhbəri, onun müavini, sektor (bölmə) rəhbəri, baş məsləhətçi, böyük məsləhətçi;

32.3. lisenziyada nəzərdə tutulmuş şərtlərin pozulması ilə və ya xüsusi icazə olmadan mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalardan istifadə etməklə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə münasibətdə müvafiq sahə üzrə nəzarəti həyata keçirən Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxs adından – publik hüquqi şəxsin direktoru, sədri, Direktorlar Şurasının sədri, onların müavinləri, baş icraçı direktor (icraçı direktor), Aparatın rəhbəri, onların müavinləri, İdarə Heyətinin üzvləri, departament (idarə, şöbə) rəhbərləri, onların müavinləri, sektor müdiri, məsləhətçilər (mütəxəssislər, hüquqşünaslar).

33. Məcəllənin 401.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

*33.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi adından – bu Siyahının 26-cı hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;*[30]

*33.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti adından – bu Siyahının 28-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.*[31]

34. Məcəllənin 401.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

*34.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından – bu Siyahının 8.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;*[32]

34.2. vergi nəzarəti zamanı aşkar edildiyi hallarda Azərbaycan Respublikasının *Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat* Nazirliyi adından – bu Siyahının 32.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;[33]

*34.3. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından – bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.*

*34-1. Məcəllənin 401.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:*

*34-1.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından – bu Siyahının 8.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər (bu Fərmanın 34-1.3-cü bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla);*[34]

*34-1.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından – bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;*[35]

*34-1.3. vergi nəzarəti zamanı aşkar edildiyi hallarda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından – bu Siyahının 32.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.*[36]

*34-2. Məcəllənin 401.4-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:* [37]

*34-2.1. inzibati xətalar haqqında işlər üzrə icraat Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən aparılarkən Azərbaycan Respublikasının Mərkəzi Bankı adından – bu Siyahının 57.2.2-ci yarımbəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*34-2.2. vergi nəzarəti zamanı aşkar edildiyi hallarda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından – bu Siyahının 32.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.*

35. Məcəllənin *402-ci maddəsində* nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Vergilər Nazirliyi adından – bu Siyahının 32.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.[38]

36. Məcəllənin 403-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

36.1. publik hüquqi şəxslərə, kommersiya qurumlarına, o cümlədən xarici kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə münasibətdə Azərbaycan Respublikasının Vergilər Nazirliyi adından – bu Siyahının 32.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

36.2. dini qurumlar istisna olmaqla digər qeyri-kommersiya qurumlarına, o cümlədən xarici qeyri-kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından – ədliyyə naziri, onun müavinləri, Nazirliyin Aparatının Qeydiyyat və notariat baş idarəsinin rəisi, onun müavini, həmin baş idarənin idarə və şöbə rəisləri, Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, onun müavini, Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi Aparatının qeydiyyat və notariat şöbəsinin rəisi, rayon (şəhər) qeydiyyat şöbələrinin rəisləri;

36.3. dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi adından – Komitənin sədri, onun müavinləri, Aparatın rəhbəri, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, bölgə üzrə şöbə müdiri, Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi, onun müavini.

37. Məcəllənin 404-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

37.1. publik hüquqi şəxslərə, kommersiya qurumlarına, o cümlədən xarici kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə münasibətdə Azərbaycan Respublikasının Vergilər Nazirliyi adından – bu Siyahının 32.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

37.2. dini qurumlar istisna olmaqla digər qeyri-kommersiya qurumlarına, o cümlədən xarici qeyri-kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından - bu Siyahının 36.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

37.3. dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi adından – bu Siyahının 36.3-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

37.4. maliyyə bazarlarında nəzarət edilən subyektlərə münasibətdə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası adından – bu Siyahının 33.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.

38. Məcəllənin 406 – 408, 438.2 və 438.3-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə

protokol:

38.1. Azərbaycan Respublikasının Vergilər Nazirliyi adından – bu Siyahının 32.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

38.2. maliyyə bazarlarında nəzarət edilən subyektlərə münasibətdə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası adından – bu Siyahının 33.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.

39. Məcəllənin 409-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası adından – bu Siyahının 33.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.

*39-1. Məcəllənin 411-1.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Maliyyə Nazirliyi adından – maliyyə naziri, onun müavinləri, maliyyə nazirinin müşavirləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Nazirlik yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyinin direktoru, onun müavinləri, şöbə müdiri, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Naxçıvan Muxtar Respublikasının maliyyə naziri, onun müavini, Aparatın rəhbəri, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi.*[39]

40. Məcəllənin ~~412,~~ *537.1-ci və 538-1.1–538-1.3-cü* maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi adından – Komitənin sədri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, ~~Komitə yanında Texniki Tənzimləmə və Standartlaşdırma üzrə Dövlət Nəzarəti Xidmətinin rəisi, onun müavini, şöbə müdiri, onun müavini, yerli qurumların rəhbərləri, onların müavinləri,~~ standartlara və ölçmə vasitələrinə nəzarət üzrə *vəzifəli şəxslər*, Naxçıvan Muxtar Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri, onun müavini, Aparatın rəhbəri, şöbə müdiri. [40]

41. Məcəllənin 413-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

41.1. dərman vasitələrinə münasibətdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi adından – bu Siyahının 15-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

41.2. dini təyinatlı ədəbiyyata (kağız və elektron daşıyıcılarda), audio və video materiallara, mal və məmulatlara və dini məzmunlu başqa məlumat materiallarına münasibətdə:

41.2.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi adından – bu Siyahının 36.3-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

41.2.2. inzibati xətanı aşkar etmiş yerli icra hakimiyyəti orqanları adından – bu Siyahının 12-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

41.3. vergi nəzarəti zamanı aşkar edildiyi hallarda Azərbaycan Respublikasının Vergilər Nazirliyi adından – bu Siyahının 32.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.

~~*41.4. audiovizual əsərlərə, fonoqramlara, kompüter proqramlarına, məlumat toplularına, kitab nüsxələrinə münasibətdə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi adından — bu Siyahının 11-1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.*~~[41]

42. Məcəllənin *428.9-cu və 428.10-cu maddələrində* nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından – bu Siyahının 8.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər. [42]

*42-1. Məcəllənin 429.0.5-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:* [43]

*42-1.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından – bu Siyahının 8.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*42-1.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından – bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.*

43. Məcəllənin 431-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

43.1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından – bu Siyahının 8.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

43.2. maliyyə bazarlarında nəzarət edilən subyektlərə münasibətdə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası adından – bu Siyahının 33.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.

44. Məcəllənin 432.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

44.1. dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi adından – bu Siyahının 36.3-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

44.2. qeyri-hökumət təşkilatları, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinə münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından – ədliyyə naziri, onun müavinləri, Nazirliyin Aparatının Qeydiyyat və notariat baş idarəsinin rəisi, onun müavini, həmin baş idarənin idarə və şöbə rəisləri, regional qurumların rəisləri, Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, onun müavini, Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi Aparatının Qeydiyyat və notariat şöbəsinin rəisi.

45. Məcəllənin 442-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

45.1. malların istehsalına münasibətdə *(qida məhsullarının, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin istehsalı istisna olmaqla)* Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi adından – bu Siyahının 40-cı hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;[44]

45.2. *qida məhsullarının, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin satılması, yaxud qida məhsulları, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərlə bağlı qadağan edilmiş işlərin (xidmətlərin) yerinə yetirilməsi (göstərilməsi) istisna olmaqla* malların satılmasına, yaxud qadağan olunmuş işlərin (xidmətlərin) yerinə yetirilməsinə (göstərilməsinə) münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından – bu Siyahının 8.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;[45]

*45.3. qida məhsullarının, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin istehsalına və ya satılmasına, yaxud qida məhsulları, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərlə bağlı qadağan olunmuş işlərin (xidmətlərin) yerinə yetirilməsinə (göstərilməsinə) münasibətdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından – bu Siyahının 18-1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.*[46]

46. Məcəllənin 448-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

46.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi adından – Komitənin sədri, onun müavinləri, Komitənin Aparatının Gömrük sahəsində hüquqpozmalara qarşı mübarizə baş idarəsinin rəisi, onun müavinləri, həmin baş idarənin idarə, şöbə (bölmə) rəisləri, Komitənin Aparatının İstintaq idarəsinin rəisi, onun müavinləri, Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsinin sədri, onun müavini, Komitənin sisteminə daxil olan ərazi və ixtisaslaşdırılmış baş gömrük idarələrinin və gömrük idarələrinin rəisləri, onların müavinləri, şöbə rəisləri, onların müavinləri, bölmə rəisləri, baş inspektorlar, böyük inspektorlar, müstəntiqlər və təhqiqatçılar;

46.2. inzibati xətanı *(saxta və ya keyfiyyətsiz qida məhsullarının, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin idxalı ilə bağlı inzibati xəta istisna olmaqla)* aşkar etmiş Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi adından – bu Siyahının 40-cı hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;[47]

*46.3. inzibati xətanı "(saxta və ya keyfiyyətsiz qida məhsullarının, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin idxalına münasibətdə) aşkar etmiş Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından – bu Siyahının 18-1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.*[48]

47. Məcəllənin 449-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

*47.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından – bu Siyahının 18-1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;*[49]

~~47.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi adından – bu Siyahının 3-cü hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;~~

~~47.3. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi adından – bu Siyahının 23-cü hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;~~[50]

47.4. idxala münasibətdə *o cümlədən* Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi adından – bu Siyahının 46.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.[51]

48. Məcəllənin 451-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

48.1. dərman vasitələrinə münasibətdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi adından – bu Siyahının 15-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

48.2. dini təyinatlı ədəbiyyata (kağız və elektron daşıyıcılarda), audio və video materiallara, mal və məmulatlara və dini məzmunlu başqa məlumat materiallarına münasibətdə:

48.2.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi adından – bu Siyahının 36.3-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

48.2.2. inzibati xətanı aşkar etmiş yerli icra hakimiyyəti orqanları adından – bu Siyahının 12-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

48.3. vergi nəzarəti zamanı aşkar edildiyi hallarda Azərbaycan Respublikasının Vergilər Nazirliyi adından – bu Siyahının 32.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

*48.4. audiovizual əsərlərə, fonoqramlara, kompüter proqramlarına, məlumat toplularına, kitab nüsxələrinə münasibətdə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi adından — bu Siyahının 11-1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.*[52]

*48-1. Məcəllənin 456-cı maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:* [53]

*48-1.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından – bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;*

*48-1.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından – bu Siyahının 18-1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.*

*49. Məcəllənin 459.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:* [54]

*49.1. qida məhsulları, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərlə bağlı elektron ticarət istisna olmaqla, digər hallara münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından – bu Siyahının 8.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*49.2. qida məhsulları, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərlə bağlı elektron ticarətə münasibətdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından – bu Siyahının 18-1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.*

50. Məcəllənin 464-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

50.1. maliyyə bazarlarında nəzarət edilən subyektlərə münasibətdə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası adından – bu Siyahının 33.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

*50.2. siyasi partiyalara münasibətdə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası adından – Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası, Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyası;*[55]

*50.3. digər hallarda Azərbaycan Respublikasının Maliyyə Nazirliyi adından – bu Siyahının 51.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.*[56]

51. Məcəllənin 465 və 466-cı maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

51.1. qeyri-hökumət təşkilatları, o cümlədən xarici dövlətin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinə münasibətdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi adından – maliyyə naziri, onun müavinləri, maliyyə nazirinin müşavirləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Naxçıvan Muxtar Respublikasının maliyyə naziri, onun müavini, Aparatın

rəhbəri, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

51.2. siyasi partiyalara münasibətdə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası adından – Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası, Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyası.

52. Məcəllənin 469.1-ci (auditorun peşə məsuliyyətinin icbari sığortasına münasibətdə) maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının *Maliyyə Bazarlarına Nəzarət Palatası adından – bu Siyahının 33.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.*[57]

53. Məcəllənin 506 və 508-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi adından – bu Siyahının 46.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.

54. Məcəllənin *515.0.1* və 516.0.1-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi adından – bu Siyahının 36.3-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər. [58]

*54-1. Məcəllənin 515.0.2 — 515.0.5-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:* [59]

*54-1.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi adından — bu Siyahının 36.3-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*54-1.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından — bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.*

55. Məcəllənin 516.0.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

55.1. *inzibati xətanı aşkar etmiş* Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi adından – bu Siyahının 36.3-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər; [60]

55.2. *inzibati xətanı aşkar etmiş* yerli icra hakimiyyəti orqanı adından – bu Siyahının 12-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

*55.3. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından — bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.*[61]

*55-1. Məcəllənin 517-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:* [62]

*55-1.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından — bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;*

*55-1.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti adından — bu Siyahının 28-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.*

*55-2. Məcəllənin 517-2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:* [63]

*55-2.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Müdafiə Nazirliyi adından — müdafiə naziri, müdafiə nazirinin birinci müavini - Baş Qərargah rəisi, müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı, digər nazir müavinləri, Nazirliyin Aparatının baş idarə (idarə) rəisləri, qarnizon rəisləri, Hərbi Polis İdarəsinin rəisi, qarnizon hərbi polisinin rəisləri (qarnizonun hərbi komendantları), Nazirliyin hərbi hissə komandirləri;*

*55-2.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından — bu Siyahının 62-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;*

*55-2.3. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi adından — fövqəladə hallar naziri, onun müavinləri, Nazirliyin Aparatının idarə rəisi, onun müavini, şöbə müdiri, onun müavini, Mülki Müdafiə Qoşunlarının komandanı, onun müavinləri, Mülki Müdafiə Qoşunları hərbi hissələrinin komandirləri, Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri və onun müavini;*

*55-2.4. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti adından — Xidmətin rəisi, onun müavinləri, Xidmətin Aparatının müvafiq strukturlarının rəhbərləri (rəisləri), Xidmətin hərbi hissələrinin komandirləri;*

*55-2.5. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti adından — Xidmətin rəisi, onun müavinləri, Xidmətin Aparatının müvafiq strukturlarının rəhbərləri (rəisləri), Xidmətin hərbi hissələrinin komandirləri, Naxçıvan Muxtar Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, onun müavini;*

*55-2.6. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti adından — Xidmətin rəisi, onun birinci müavini, Sərhəd Qoşunlarının komandanı, Əlahiddə Sərhəd Diviziyasının komandiri, Sahil Mühafizəsinin rəisi, Çevik Hərəkət Qüvvələrinin komandanı, Xüsusi Hava Əməliyyatları Qüvvələrinin komandanı, Sərhəd Nəzarətinin rəisi, Xidmətin Aparatının müvafiq idarələrinin rəisləri, onların müavinləri, sərhəd dəstələrinin rəisləri, Xidmətin hərbi hissələrinin komandirləri;*[64]

*55-2.7. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti adından — bu Siyahının 75-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.*

*55-3. Məcəllənin 516-1.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xəta (dəfnlərin təşkili zamanı sanitariya-gigiyena normalarının pozulmasına münasibətdə) haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi adından – səhiyyə naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru, onun müavini, şöbə və bölmə müdirləri, onların müavinləri, şəhər və rayon gigiyena və epidemiologiya mərkəzlərinin direktoru, onun müavini, şöbə və bölmə müdirləri, onların müavinləri.*[65]

56. Məcəllənin 526 və 595.1-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından – yerli icra qurumlarının rəisləri, onların müavinləri və icra məmurları.

57. Məcəllənin 527-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

57.1. məhkəmənin xüsusi qərardadına (qərarına) və ya hakimin təqdimatına münasibətdə Azərbaycan

Respublikasının Ədliyyə Nazirliyi adından – ədliyyə naziri, onun müavinləri, Nazirliyin Aparatının İcra baş idarəsinin rəisi, onun müavinləri, Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, onun müavini, Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi Aparatının İcra şöbəsinin rəisi, yerli icra qurumlarının rəisləri, onların müavinləri və icra məmurları;

57.2. səlahiyyətli orqanın (vəzifəli şəxsin) təqdimatına münasibətdə təqdimatı vermiş:

57.2.1. Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanları adından – orqanın rəhbəri, onun müavini, Aparatın rəhbəri, onun müavini, idarə (departament, şöbə) rəhbəri, onun müavini;

57.2.2. Azərbaycan Respublikasının Mərkəzi Bankı adından – Mərkəzi Bankın sədri, onun müavinləri, baş direktorları, direktorları, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri, onun müavini;

57.2.3. yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalara münasibətdə yerli icra hakimiyyəti orqanı adından – yerli icra hakimiyyəti orqanının başçısı, onun müavinləri, şöbə müdiri, onun müavini, sektor müdiri;

57.3. Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxs adından – bu Siyahının 32.3-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər.

58. Məcəllənin *528.1 (ictimai işlər növündə inzibati tənbehin, habelə probasiya nəzarətinin tətbiqi ilə bağlı məhkəmə qərarlarının icrası ilə əlaqədar icra məmurunun qanuni tələblərinin yerinə yetirilməməsi halları istisna olmaqla), 528.2, 528.3, 529.1 və 529.2-ci* maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından – bu Siyahının 57.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.[66]

*58-1. Məcəllənin 528.1 (ictimai işlər növündə inzibati tənbehin, habelə probasiya nəzarətinin tətbiqi ilə bağlı məhkəmə qərarlarının icrası ilə əlaqədar icra məmurunun qanuni tələblərinin yerinə yetirilməməsinə münasibətdə), 528-1.1, 528-1.2 və 529.4-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından – ədliyyə naziri, onun müavinləri, Nazirliyin Aparatının Probasiya xidmətinin rəisi, onun müavini, Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, onun müavini, Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi Aparatının Probasiya qurumunun rəisi, yerli probasiya qurumlarının rəisləri, onların müavinləri və icra məmurları.*[67]

59. Məcəllənin 530 və 532-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

59.1. inzibati xətalar haqqında işlər üzrə icraat məhkəmədə aparılarkən Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından – bu Siyahının 56-cı hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

59.2. inzibati xətalar haqqında işlər üzrə icraat Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında aparılarkən həmin orqanın adından – orqanın rəhbəri, onun müavini, Aparatın rəhbəri, onun müavini, idarə (departament, şöbə) rəhbəri, onun müavini;

59.3. inzibati xətalar haqqında işlər üzrə icraat Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən aparılarkən Azərbaycan Respublikasının Mərkəzi Bankı adından – bu Siyahının 57.2.2-ci yarımbəndində nəzərdə tutulan vəzifəli şəxslər;

59.4. inzibati xətalar haqqında işlər üzrə icraat yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar tərəfindən aparılarkən yerli icra hakimiyyəti orqanı adından – yerli icra hakimiyyəti orqanının başçısı, onun müavinləri, şöbə müdiri, onun müavini, sektor müdiri;

59.5. inzibati xətalar haqqında işlər üzrə icraat Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxs tərəfindən aparılarkən həmin qurum adından – publik hüquqi şəxsin direktoru, sədri, Direktorlar Şurasının sədri, onların müavinləri, baş icraçı direktor (icraçı direktor), Aparatın rəhbəri, onların müavinləri, İdarə Heyətinin üzvləri, departament (idarə, şöbə) rəhbərləri, onların müavinləri.

60. Məcəllənin 533*, 594-cü, 600-1-ci və 602-1-ci maddələrində* nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikası Prezidentinin Administrasiyası adından – şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi.[68]

*60-1. Məcəllənin 533-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:* [69]

*60-1.1. teleradio yayımlarına münasibətdə inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası adından – bu Siyahının 29.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*60-1.2. digər kütləvi informasiya vasitələrinə münasibətdə inzibati xətanı aşkar etmiş Azərbaycan Mətbuat Şurası adından – bu Siyahının 31.2.2-ci yarımbəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*60-1.3. açıq məkanda reklam daşıyıcılarına münasibətdə:*

*60-1.3.1. "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının və Bakı şəhərində yerləşən Dənizkənarı Milli Parkın ərazisində törədilən inzibati xətalar istisna olmaqla, digər inzibati xətalara münasibətdə inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi adından – bu Siyahının 31-2.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*60-1.3.2. "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının ərazisində törədilən inzibati xətalara münasibətdə inzibati xətanı aşkar etmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi adından – bu Siyahının 31-2.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*60-1.3.3. Bakı şəhərində yerləşən Dənizkənarı Milli Parkın ərazisində törədilən inzibati xətalara münasibətdə inzibati xətanı aşkar etmiş Dənizkənarı Bulvar İdarəsi adından – bu Siyahının 31-2.3-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər.*

61. Məcəllənin 534-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından – bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər.

62. Məcəllənin 535.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından – daxili işlər naziri, onun müavinləri, Nazirliyin Aparatının baş idarə (idarə) rəisləri, onların müavinləri, Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, onun müavinləri, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin idarə rəisləri, onların müavinləri, şəhər, rayon polis idarələrinin (şöbələrinin) və ərazi polis bölmələrinin rəisləri, onların müavinləri, nəqliyyatda polis idarələrinin, şöbələrinin, xətt bölmələrinin, məntəqələrinin rəisləri, onların müavinləri, baş təhqiqatçılar, təhqiqatçılar, baş əməliyyat müvəkkilləri, əməliyyat

müvəkkilləri, polis sahə rəisləri, polis sahə inspektorları, yetkinlik yaşına çatmayanlarla iş üzrə inspektorlar, Daxili Qoşunların hərbi hissələrinin komandirləri.

63. Məcəllənin 535.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti adından – Xidmətin rəisi, onun birinci müavini, *Sərhəd Qoşunlarının Komandanı*, Əlahiddə Sərhəd Diviziyasının komandiri, Xidmətin Sahil Mühafizəsinin rəisi, *Çevik Hərəkət Qüvvələrinin Komandanı, Xüsusi Hava Əməliyyatları Qüvvələrinin Komandanı*, sərhəd dəstələrinin rəisləri, Sərhəd *Nəzarətinin* rəisi, Xidmətin Aparatının müvafiq idarəsinin rəisi, onun müavini, həmin idarənin müstəntiqləri və təhqiqatçıları.[70]

*63-1. Məcəllənin 544.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:* [71]

*63-1.1. qida məhsulları, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin istehlakçılarının hüquqlarının müdafiəsinə münasibətdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adından – bu Siyahının 18-1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;*

*63-1.2. qida məhsulları, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin istehlakçılarının hüquqlarının müdafiəsi istisna olmaqla, digər hallara münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından – bu Siyahının 8.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.*

~~64. Məcəllənin 547-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Hesablama Palatası adından – Palatanın sədri, onun müavini, Aparatın rəhbəri, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin rəisi, onun müavini.~~[72]

65. Məcəllənin 549-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından – ədliyyə naziri, onun müavinləri, Nazirliyin Aparatının Bələdiyyələrlə iş mərkəzinin rəisi, onun müavini, İnzibati nəzarət idarəsinin rəisi, baş məsləhətçisi, böyük məsləhətçisi, aparıcı məsləhətçisi, regional qurumların rəisləri, baş məsləhətçiləri, Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, onun müavini, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş mərkəzinin rəisi, baş məsləhətçisi.

*65-1. Məcəllənin 550.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin adından – Xidmətin rəisi, onun müavinləri, Feldyeger Rabitəsi İdarəsinin rəisi və onun müavini.*[73]

66. Məcəllənin 551-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol ixrac nəzarətini həyata keçirmək səlahiyyətinə malik olan orqanlar adından – orqanın rəhbəri, onun müavini, Aparatın rəhbəri, onun müavini, idarə (departament, şöbə) rəhbəri, onun müavini, sektor (bölmə) rəhbəri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi.

*66-1. Məcəllənin 552-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:* [74]

*66-1.1. Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində törədilən inzibati xətalar istisna olmaqla, digər inzibati xətalara münasibətdə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi adından – Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri, onun müavinləri, Aparat rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Nazirlik yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi, onun müavinləri, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, yerli bölmələrin rəhbərləri, onların müavinləri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin rəisi, onun müavinləri, şöbə müdiri, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;*

*66-1.2. Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində törədilmiş inzibati xətalar haqqında işlərə münasibətdə Bakı Nəqliyyat Agentliyi adından – bu Siyahının 26-4.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*66-1.3. Sumqayıt şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində törədilmiş inzibati xətalar haqqında işlərə münasibətdə Sumqayıt Şəhər İcra Hakimiyyəti adından – bu Siyahının 26-4.3-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər;*

*66-1.4. Gəncə şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində törədilmiş inzibati xətalar haqqında işlərə münasibətdə Gəncə Şəhər İcra Hakimiyyəti adından – bu Siyahının 26-4.4-cü bəndində nəzərdə tutulan vəzifəli şəxslər.*

67. Məcəllənin 553-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

67.1. torpaqları dövlət ehtiyacları üçün alan orqana münasibətdə həmin orqanın adından – orqanın rəhbəri, onun müavini, Aparatın rəhbəri, onun müavini, idarə (departament, şöbə) rəhbəri, onun müavini, sektor (bölmə) rəhbəri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

67.2. nəzarət orqanına münasibətdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi adından – bu Siyahının 8.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.

68. Məcəllənin 558.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi adından – Komitənin sədri, onun müavinləri, Aparatın rəhbəri, şöbə müdiri, onun müavini, Komitənin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin rəisi, onun müavinləri, şöbə müdiri, onun müavini, Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin sədri, onun müavini, şöbə müdiri.

69. Məcəllənin 560 və 561-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi adından – Komitənin sədri, onun müavinləri, Aparatın rəhbəri, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Komitənin ərazi bölmələrinin müdirləri, onların müavinləri, baş məsləhətçiləri, aparıcı məsləhətçiləri, məsləhətçiləri, Naxçıvan Muxtar Respublikasında müvafiq sahəyə cavabdeh dövlət orqanının rəhbəri, onun müavini, şöbə müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi.

70. Məcəllənin 574-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi adından – xarici işlər naziri, onun müavini, konsulluq idarəsinin rəisi, onun müavini, Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin rəhbəri, onun müavini, Azərbaycan Respublikasının səfirləri və baş konsulları, Azərbaycan Respublikasının səfirliklərinin və konsulluqlarının konsulluq məsələləri üzrə məsul əməkdaşları.

71. Məcəllənin 598-ci (monitorinqdə iştirak edən digər şəxslərə münasibətdə) maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

71.1. vəkillərə münasibətdə Azərbaycan Respublikasının Vəkillər Kollegiyası adından – Rəyasət Heyətinin sədri, onun müavinləri, vəkil qurumlarının rəhbərləri;

~~71.2. notariuslara münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından – ədliyyə naziri, onun müavinləri, Nazirliyin Aparatının Qeydiyyat və notariat baş idarəsinin rəisi, onun müavini, həmin baş idarənin notariat idarəsinin rəisi, Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, onun müavini, Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi Aparatının Qeydiyyat və notariat şöbəsinin rəisi;~~[75]

~~71.3. *hüquq xidmətləri, mühasibat və vergi məsləhəti xidmətləri* göstərən digər şəxslərə münasibətdə Azərbaycan Respublikasının Vergilər Nazirliyi adından – bu Siyahının 32.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;~~[76]

71.4. auditor xidməti göstərən şəxslərə münasibətdə Azərbaycan Respublikasının Auditorlar Palatası adından – *Auditorlar Palatasının sədri, onun müavini, Aparatın rəhbəri;*[77]

~~*71.5. qiymətli daşların, qiymətli metalların, o cümlədən qiymətli daşlardan və ya qiymətli metallardan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının alqı-satqısı ilə məşğul olan fiziki və ya hüquqi şəxslərə münasibətdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi adından – maliyyə naziri, onun müavinləri, maliyyə nazirinin müşavirləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Nazirliyin Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidmətinin rəisi, onun müavinləri, şöbə müdiri, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Nazirliyin Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidmətinin regional orqanlarının rəhbərləri, onların müavinləri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Naxçıvan Muxtar Respublikasının maliyyə naziri, onun müavini, Aparatın rəhbəri, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;*~~[78]

~~*71.6. daşınmaz əmlakın alqı-satqısı üzrə vasitəçilik xidmətləri göstərən fiziki və ya hüquqi şəxslərə, lotereya və idman mərc oyunları təşkilatçılarına münasibətdə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası adından – bu Siyahının 33.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.*~~

72. Məcəllənin 599 və 600-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi adından – Direktorlar Şurasının sədri, onun müavinləri, icraçı direktor, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi.

73. Məcəllənin 602.1 və 602.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

73.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından – bu Siyahının 8.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

73.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından – bu Siyahının 44.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.

*73-1. Məcəllənin 602.3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:* [79]

*73-1.1. yoxlayıcı orqanlara (yoxlayıcılara) münasibətdə yuxarı dövlət orqanının rəhbəri, onun müavini, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, baş məsləhətçi, böyük məsləhətçi;*

*73-1.2. yoxlayıcı orqanlara (yoxlayıcılara) münasibətdə yuxarı dövlət orqanının olmadığı hallarda Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından — bu Siyahının 44.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.*

74. Məcəllənin 602.4-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

74.1. sahibkarlıq sahəsində yoxlama aparmaq səlahiyyəti verilmiş dövlət orqanı adından – dövlət orqanının rəhbəri, onun müavini, Aparatın rəhbəri, onun müavini, idarə (departament, şöbə) rəhbəri, onun müavini, bilavasitə yoxlamanı aparan vəzifəli şəxsi;

74.2. sahibkarlıq sahəsində yoxlama aparmaq səlahiyyəti verilmiş publik hüquqi şəxs adından – publik hüquqi şəxsin direktoru, sədri, Direktorlar Şurasının sədri, onların müavinləri, baş icraçı direktor (icraçı direktor), Aparatın rəhbəri, onların müavinləri, İdarə Heyətinin üzvləri, departament (idarə, şöbə) rəhbərləri, onların müavinləri, bilavasitə yoxlamanı aparan vəzifəli şəxsi.

75. Məcəllənin 603, 605, 608 və 609-cu maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti adından – Xidmətin rəisi, onun müavinləri, Xidmətin yerli *baş idarə*, idarə, şöbə və bölmələrinin rəisləri, onların müavinləri, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, onun müavini, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrinin rəisləri, onların müavinləri.[80]

**Qeyd:**

1. Məcəllənin 43.1-ci maddəsində göstərilən inzibati xətalar haqqında işlərə baxmaq hüququ Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na uyğun olaraq, həmçinin səlahiyyətli orqanlara (vəzifəli şəxslərə) aid edildikdə, icraatında inzibati xətalar haqqında iş olan həmin Siyahıda göstərilən vəzifəli şəxslər Məcəllənin 43.3-cü maddəsində müəyyən edilmiş əsasların olduğu qənaətinə gəldikdə inzibati xəta haqqında protokolu baxılmaq üçün məhkəməyə göndərirlər.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda nəzərdə tutulan vəzifəli şəxslər Məcəllənin

18.2-ci maddəsində müəyyən edilmiş əsasların olduğu qənaətinə gəldikdə, inzibati xəta haqqında protokolu baxılmaq üçün məhkəməyə göndərirlər.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 22 sentyabr 2017-ci il tarixli **1603** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 23 sentyabr 2017-ci il, 207 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 9, maddə 1650**)
2. 5 oktyabr 2017-ci il tarixli **1622** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 oktyabr 2017-ci il, 218 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 10, maddə 1789**)
3. 19 dekabr 2017-ci il tarixli **1746** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 20 dekabr 2017-ci il, 281 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, I kitab, maddə 2314**)
4. 22 dekabr 2017-ci il tarixli **1753** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 23 dekabr 2017-ci il, 284 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, I kitab, maddə 2321**)
5. 26 yanvar 2018-ci il tarixli **1798** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 27 yanvar 2018-ci il, 19, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 1, maddə 54**)
6. 20 fevral 2018-ci il tarixli **1836** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti 21 fevral 2018-ci il, 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 200**)
7. 28 fevral 2018-ci il tarixli **1855** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti 1 mart 2018-ci il, 47 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 219**)
8. 6 mart 2018-ci il tarixli **1866** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti 7 mart 2018-ci il, 52, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 416**)
9. 7 mart 2018-ci il tarixli **1880** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti 8 mart 2018-ci il, 53, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 430**)
10. 29 mart 2018-ci il tarixli **1898** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 30 mart 2018-ci il, 70 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 448**)
11. 7 may 2018-ci il tarixli **48** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 11 may 2018-ci il, 105 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 916**)
12. 10 may 2018-ci il tarixli **51** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 13 may 2018-ci il, 107 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 919**)
13. 27 iyun 2018-ci il tarixli **153** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 28 iyun 2018-ci il, 140, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 6, maddə 1243**)
14. 12 sentyabr 2018-ci il tarixli **265** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 13 sentyabr 2018-ci il, 204 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 9, maddə 1828**)
15. 19 sentyabr 2018-ci il tarixli **277** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 9 , maddə 1840**)
16. 23 noyabr 2018-ci il tarixli **361** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 24 noyabr 2018-ci il, 265 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2274**)
17. 27 noyabr 2018-ci il tarixli **376** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2289**)
18. 10 dekabr 2018-ci il tarixli **383** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 11 dekabr 2018-ci il, 279 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, I kitab, maddə 2540**)
19. 21 dekabr 2018-ci il tarixli **430** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 22 dekabr 2018-ci il, 289 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, I kitab, maddə 2587**)
20. 27 dekabr 2018-ci il tarixli **444** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, I kitab, maddə 2601**)
21. 28 yanvar 2019-cu il tarixli **492** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 29 yanvar 2019-cu il, 22 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 1, maddə 82**)
22. 7 fevral 2019-cu il tarixli **517** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 10 fevral 2019-cu il, 33 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 216**)
23. 19 mart 2019-cu il tarixli **591** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 20 mart 2019-cu il, 64 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 431**)
24. 10 aprel 2019-cu il tarixli **620** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 11 aprel 2019-cu il, 77, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 620**)
25. 2 may 2019-cu il tarixli **667** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 3 may 2019-cu il, 96, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 819**)
26. 3 may 2019-cu il tarixli **672** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 4 may 2019-cu il, 97, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 824**)
27. 7 may 2019-cu il tarixli **683** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 8 may 2019-cu il, 100 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 835**)
28. 29 may 2019-cu il tarixli **714** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 30 may 2019-cu il, 117 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 866**)
29. 3 iyul 2019-cu il tarixli **773** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 4 iyul 2019-cu il, 142 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 7, maddə 1221**)

30. 5 avqust 2019-cu il tarixli **805** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 6 avqust 2019-cu il, 170, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1388)**

31. 14 oktyabr 2019-cu il tarixli **836** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 17 oktyabr 2019-cu il, 230, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 10, maddə 1581)**

32. 16 oktyabr 2019-cu il tarixli **842** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 17 oktyabr 2019-cu il, 230, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 10, maddə 1587)**

33. 12 noyabr 2019-cu il tarixli **852** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 13 noyabr 2019-cu il, 251, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 11, maddə 1700)**

34. 26 noyabr 2019-cu il tarixli **862** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 27 noyabr 2019-cu il, 263, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 11, maddə 1710)**

35. 30 mart 2020-ci il tarixli **976** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti 07 aprel 2020-ci il, 63, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 3, maddə 252)**

36. 1 may 2020-ci il tarixli **1013** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti 2 may 2020-ci il, 85, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 538)**

37. 22 may 2020-ci il tarixli **1039** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 1 iyun 2020-ci il, 102, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 564)**

38. 18 iyun 2020-ci il tarixli **1069** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 19 iyun 2020-ci il, 116, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 710)**

39. 23 iyun 2020-ci il tarixli **1073** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 24 iyun 2020-ci il, 120, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 714)**

40. 6 iyul 2020-ci il tarixli **1085** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 7 iyul 2020-ci il, 129, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 865)**

41. 10 iyul 2020-ci il tarixli **1100** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 12 iyul 2020-ci il, 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 880)**

42. 11 avqust 2020-ci il tarixli **1129** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 13 avqust 2020-ci il, 158, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-cü il, 8, maddə 1032)**

43. 12 noyabr 2020-ci il tarixli **1176** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 15 noyabr 2020-ci il, 238, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 11, maddə 1345)**

44. 30 dekabr 2020-ci il tarixli **1222** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 6 yanvar 2021-ci il, 1, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 12, I kitab, maddə 1484)**

45. 28 yanvar 2021-ci il tarixli **1263** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 29 yanvar 2021-ci il, 20, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 1, maddə 33)**

46. 12 iyun 2021-ci il tarixli **1351** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 13 iyun 2021-ci il, 122, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 6, I kitab, maddə 566)**

47. 17 avqust 2021-ci il tarixli **1429** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 18 avqust 2021-ci il, 172, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 921)**

48. 29 dekabr 2021-ci il tarixli **1542** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1407)**

49. 30 dekabr 2021-ci il tarixli **1558** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1423)**

50. 5 aprel 2022-ci il tarixli **1644** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 6 aprel 2022-ci il, 69)**

51. 5 aprel 2022-ci il tarixli **1645** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 6 aprel 2022-ci il, 69)**

52. 13 aprel 2022-ci il tarixli **1662** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 14 aprel 2022-ci il, 76)**

53. 23 aprel 2022-ci il tarixli **1668** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 24 aprel 2022-ci il, 85)**

54. 5 iyul 2022-ci il tarixli **1739** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 6 iyul 2022-ci il, 141)**

**FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 7 mart 2018-ci il tarixli **1880** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti 8 mart 2018-ci il, 53, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 3, maddə 430)** ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 1-ci hissəsində "**227-1**" rəqəmləri "**227**" rəqəmləri ilə əvəz edilmişdir.

12 sentyabr 2018-ci il tarixli **265** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 13 sentyabr 2018-ci il, 204, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 9, maddə 1828)** ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 1-ci hissəsindən "**456,**" rəqəmləri çıxarılmışdır.

22 may 2020-ci il tarixli **1039** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 1 iyun 2020-ci il, 102, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 564)** ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 1-ci hissədə "**290.3 (səlahiyyətlərinə aid edilmiş maddələr üzrə),**" sözləri "**232-1, 290.3 (səlahiyyətlərinə aid edilmiş maddələr üzrə), 351- 1,**" sözləri ilə əvəz edilmişdir.

[2] 29 dekabr 2021-ci il tarixli **1542** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1407)** ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 2-ci hissəsində "**və 183-cü**" sözləri "**,183-cü və 477-2.2-ci**" sözləri ilə əvəz edilmişdir.

23 aprel 2022-ci il tarixli **1668** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 24 aprel 2022-ci il, 85**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 2-ci hissəsində "**yanında**" sözü "**tabeliyində**" sözü ilə, "**direktoru**" sözü "**İdarə Heyətinin sədri**" sözləri ilə, "**şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, rayon (şəhər) şöbələrinin rəhbərləri, onların müavinləri**" sözləri "**departament müdiri, onun müavini, şöbə müdiri, baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis, filial və nümayəndəliklərinin rəhbərləri, onların müavinləri**" sözləri ilə əvəz edilmişdir.

[3] 12 iyun 2021-ci il tarixli **1351** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 13 iyun 2021-ci il, 122, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 6, I kitab, maddə 566**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 3-cü hissəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~3. Məcəllənin 162, 163 və 562.1-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi adından — səhiyyə naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, Bakı Şəhər Baş Səhiyyə İdarəsinin və Gəncə Şəhər Səhiyyə İdarəsinin rəisləri, onların müavinləri, Sumqayıt Şəhər Səhiyyə Şöbəsinin müdiri, Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri, onun müavini.~~

[4] 12 iyun 2021-ci il tarixli **1351** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 13 iyun 2021-ci il, 122, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 6, I kitab, maddə 566**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na yeni məzmunda 3-1-ci hissə əlavə edilmişdir.

[5] 19 mart 2019-cu il tarixli **591** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 20 mart 2019-cu il, 64, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 431**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 9-cu hissəsinə **"184.1.4**" rəqəmlərindən sonra **", 516-1.1, 516-1.3 (qəbir yerlərinin rezervasiyası tələblərinin pozulmasına münasibətdə)"** sözləri əlavə edilmişdir.

[6] 28 fevral 2018-ci il tarixli **1855** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti 1 mart 2018-ci il, 47, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 219**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na yeni məzmunda 11-1-ci hissə əlavə edilmişdir.

27 dekabr 2018-ci il tarixli **444** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, I kitab, maddə 2601**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 11-1-ci hissəyə "**185-188-ci**" sözlərindən sonra "**və 412-ci**" sözləri əlavə edilsin və həmin hissədə "**Müəllif Hüquqları**" sözləri "**Əqli Mülkiyyət**" sözləri ilə əvəz edilmişdir.

[7] 22 may 2020-ci il tarixli **1039** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 1 iyun 2020-ci il, 102, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 564**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 13-cü hissədə "**196,**" rəqəmlərindən sonra "**198.2, 198.3,**" rəqəmləri əlavə edilmişdir.

10 iyul 2020-ci il tarixli **1100** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 12 iyul 2020-ci il, 134, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 880**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 13-cü hissəsinə "**204**" rəqəmlərindən sonra "**, 205-1.2**" rəqəmləri əlavə edilmişdir.

[8] 23 aprel 2022-ci il tarixli **1668** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 24 aprel 2022-ci il, 85**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 14.1-ci bənddə "**bu Siyahının 2-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər**" sözləri **"əmək və əhalinin sosial müdafiəsi naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri, onun müavinləri, departament müdiri, onun müavini, şöbə müdiri, baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis, filial və nümayəndəliklərinin rəhbərləri, onların müavinləri, Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri, onun müavini, Aparatın rəhbəri, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi**" sözləri ilə əvəz edilmişdir.

[9] 22 sentyabr 2017-ci il tarixli **1603** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 23 sentyabr 2017-ci il, 207, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 9, maddə 1650**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 15-ci hissəsində "**221.1 və 221.4-cü**" sözləri **"221.1, 221.4, 221.8 və 221.9-cu**" sözləri ilə əvəz edilmişdir.

12 sentyabr 2018-ci il tarixli **265** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 13 sentyabr 2018-ci il, 204, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 9, maddə 1828**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 15-ci hissəsindən "**, 221.8**" rəqəmləri çıxarılmışdır.

7 may 2019-cu il tarixli **683** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 8 may 2019-cu il, 100, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 835**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 15-ci hissəsində "**221.9-cu**" sözləri "**221.9 - 221.11-ci**" sözləri ilə əvəz edilmişdir.

[10] 5 aprel 2022-ci il tarixli **1644** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 aprel 2022-ci il, 69**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 17-ci hissəsində "**Tarif (qiymət) Şurasının katibliyi adından – Şuranın katibi, onun müavini**" sözləri "**İqtisadiyyat Nazirliyi adından – iqtisadiyyat naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini**" sözləri ilə əvəz edilmişdir və həmin bəndə "**baş məsləhətçi,**" sözlərindən sonra "**böyük məsləhətçi,"** sözləri əlavə edilmişdir.

[11] 12 sentyabr 2018-ci il tarixli **265** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 13 sentyabr 2018-ci il, 204, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 9, maddə 1828**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na yeni məzmunda 18-1-ci hissə əlavə edilmişdir.

28 yanvar 2021-ci il tarixli **1263** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 29 yanvar 2021-ci il, 20, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 1, maddə 33**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə

protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 18-1-ci hissəsində "**bölmələrin rəhbərləri**" sözləri "**bölmənin rəhbəri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi**" sözləri ilə əvəz edilmişdir.

[12] 7 fevral 2019-cu il tarixli **517** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 10 fevral 2019-cu il, 33 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 216**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 19-cu hissəsinə "**229,**" rəqəmlərindən sonra "**253-1.1.1 (yaşıllıqların uçota alınmamasına münasibətdə), 253-1.1.2 (yaşıllıqların uçotu məlumatlarının təhrif edilməsinə münasibətdə), 253-1.1.3,**" rəqəmləri və sözləri əlavə edilmişdir.

29 may 2019-cu il tarixli **714** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 30 may 2019-cu il, 117 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 866**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 19-cu hissəsində "**Nazirliyin Ətraf Mühitin Mühafizəsi Departamentinin direktoru**" sözləri "**Nazirliyin yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin rəisi**" sözləri ilə əvəz edilmişdir və həmin hissədən "**Bakı şəhəri Ekologiya və Təbii Sərvətlər Departamentinin direktoru, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi,**" sözləri çıxarılmışdır.

[13] 19 sentyabr 2018-ci il tarixli **277** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 9 , maddə 1840**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 22-ci hissəsində "**Dövlət Dəniz Administrasiyası**" sözləri "**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi**" sözləri ilə, "**Administrasiyanın rəisi, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi**" sözləri "**nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, Nazirliyin yanında Dövlət Dəniz Agentliyinin direktoru, onun müavinləri, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi**" sözləri ilə əvəz edilmişdir.

[14] 30 dekabr 2020-ci il tarixli **1222** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 6 yanvar 2021-ci il, 1 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 12, I kitab, maddə 1484**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na yeni məzmunda 22-1-ci hissə əlavə edilmişdir.

[15] 28 fevral 2018-ci il tarixli **1855** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti 1 mart 2018-ci il, 47, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 219**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 23-cü hissəsində "**286-cı maddəsində**" sözləri "**286 və 459-1-ci maddələrində**" sözləri ilə əvəz edilmişdir.

5 avqust 2019-cu il tarixli **805** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 avqust 2019-cu il, 170, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1388**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 23-cü hissəsində "**Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmətinin rəisi**" sözləri "**Aqrar Xidmətlər Agentliyinin sədri**" sözləri ilə əvəz edilmişdir və həmin hissədən "**yerli bölmələrinin rəhbərləri, onların müavinləri,**" sözləri çıxarılmışdır.

[16] 5 avqust 2019-cu il tarixli **805** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 avqust 2019-cu il, 170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1388**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 24-cü hissəsində "**Dövlət Baytarlıq Nəzarəti Xidmətinin rəisi**" sözləri "**Aqrar Xidmətlər Agentliyinin sədri**" sözləri ilə əvəz edilmişdir və həmin hissədən "**yerli bölmələrinin rəhbərləri, onların müavinləri,**" sözləri çıxarılmışdır.

[17] 12 noyabr 2019-cu il tarixli **852** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 13 noyabr 2019-cu il, 251 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 11, maddə 1700**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na yeni məzmunda 24-1-ci hissə əlavə edilmişdir.

[18] 22 dekabr 2017-ci il tarixli **1753** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 23 dekabr 2017-ci il, 284 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, I kitab, maddə 2321**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 26-cı hissəsində "**375**" rəqəmləri "**370-1, 375, 388-1**" rəqəmləri ilə əvəz edilmişdir.

28 fevral 2018-ci il tarixli **1855** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti 1 mart 2018-ci il, 47, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 219**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 26-cı hissəsinə "**369**" rəqəmlərindən əvvəl "**325.1, 326,**" rəqəmləri əlavə edilmişdir.

26 noyabr 2019-cu il tarixli **862** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 27 noyabr 2019-cu il, 263, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 11, maddə 1710**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 26-cı hissəsinə "**326,**" rəqəmlərindən sonra "**363-2,**" rəqəmləri əlavə edilmişdir.

30 mart 2020-ci il tarixli **976** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti 07 aprel 2020-ci il, 63, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 3, maddə 252**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 26-cı hissədə "**388-1**" rəqəmi "**388-1.1.2, 388-1.2**" rəqəmləri ilə əvəz edilmişdir.

18 iyun 2020-ci il tarixli **1069** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 19 iyun 2020-ci il, 116 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 710**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 26-cı hissəsindən "**325.1, 326,**" rəqəmləri çıxarılmışdır.

11 avqust 2020-ci il tarixli **1129** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 13 avqust 2020-ci il, 158 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-cü il, 8, maddə 1032**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 26-cı hissəsinə "**370-1,**" rəqəmlərindən sonra "**370-2,**" rəqəmləri əlavə edilmişdir.

[19] 26 noyabr 2019-cu il tarixli **862** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 27 noyabr 2019-cu il, 263, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 11, maddə 1710**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na yeni məzmunda 26-1-ci hissə əlavə edilmişdir.

[20] 30 mart 2020-ci il tarixli **976** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti 07 aprel 2020-ci il, 63, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 3, maddə 252**) ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə

protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na 26-2-ci hissə əlavə edilmişdir.

[21] 18 iyun 2020-ci il tarixli **1069** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 19 iyun 2020-ci il, 116 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 710)** ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na yeni məzmunda 26-3-cü və 26-4-cü hissələr əlavə edilmişdir.

